**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**AYNUR FƏRRUX QIZI HƏSƏNOVA**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA ALİ PEDAQOJİ TƏHSİLİN İNKİŞAFI (1991-2000-CI ILLƏR)

5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2015**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Pedaqogika kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbərlər:** **Fərrux Abbas oğlu Rüstəmov**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, əməkdar elm xadimi,*
*Beynəlxalq Pedaqoji Akademiyanın*
*həqiqi üzvü*

**Rəsmi opponent:** **Süleyman Abbas oğlu Məmmədov,**
*tarix üzrə elmlər doktoru, professor,*
*Əməkdar elm xadimi, Dövlət Mükafatı*
*laureatı*

**Elza Əlipaşa qızı Mollayeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

**Aparıcı təşkilat:** Azərbaycan Dillər Universitetinin
Pedaqogika kafedrası

Müdafiə " 17 " noyabr 2015-ci ildə saat _____ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___"__________ 2015-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi:** **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə*
*doktoru,dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Tarixi unutqanlıq millətin ruhunu öldürür, onun şərəf və ləyaqətinə ziyan vurur. Milli tariximizi bilmədən, tarixən itirdiklərimizi tənqidi dərk etmədən və əldə etdiklərimizin qədrini bilmədən inkişaf və tərəqqi mümkün deyil. Maarif, məktəb, təhsil hər bir millətin tərəqqi körpüsü, inkişaf yolu olmuşdur. Böyük Azərbaycan mütəffəkiri, siyasi xadimi N.Nərimanov yazırdı ki, millətin tərəqqisi məktəbdən, məktəbin tərəqqisi isə müəllimdən asılıdır. Təhsil bütün dövrlərdə inkişafın başlıca mənbəyi olmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra təhsil quruculuğunda yeni nailiyyətlər əldə edidi. Bu məqsədlə bir tərəfdən, xarici ölkələrin təhsil sahəsindəki təcrübəsi öyrənildi, digər tərəfdən Azərbaycanda təhsil sahəsində qazanılmış nailiyyətlərin təhlil süzgəcindən keçirilməsi aktuallaşdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir:" Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailliyyətlərlə zəngindir". Təhsilin, o cümlədən, ali pedaqoji təhsilin nəzəri-metodoloji və praktik istiqamətlərinin analitik təhlil edilməsi, onun inkişafının əsas xüsusiyyətlərinin, müsbət və mənfi istiqamətlərinin eyni peşəkarlıqla tədqiq edilib üzə çıxarılması, səhv fikir və dolaşıqlıqlardan azad edilməsi, düzgün elmi qənaətlərin daha da inkişaf etdirilməsi sahəsində tədqiqatlar aparıldı. Sovet dövründə təhsil və pedaqoji elmin inkişafı ciddi tədqiqatların predmetinə çevrildi. Bu da səbəbsiz deyil. Ulu öndər Heydər Əliyev haqlı olaraq deyirdi: "1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil olmamışdır, ancaq Azərbaycan xalqı böyük inkişaf yolu keçmişdir"[1]. Bu nəzəri tezislər sovet dövrü təhsil və pedaqoji tariximizin obyektiv öyrənilməsinin metodoloji əsası olmuşdur. "Pedaqogika tarixi köhnəlmiş, həyatın rədd etdiyi müddəalar, prinsiplər, qaydalar sistemi deyil, təlim-tərbiyə məsələlərinin müasir problemlərinin həlli üçün mühüm mənbələrdən biridir, keçmişdə diqqət verilməyib kənara atılmış, köhnə, indiyə kimi yanlış hesab olunan ideyaların özü də bir çox hallarda müasir mütərəqqi ideyalar üçün təkanverici bünövrə rolunu oynaya bilər"[2]. Keçmişi unutmaq olmaz, çünki o, gələcəyin müəllimidir. Azərbaycanda ali pedaqoji təhsil tarixinin araşdırılması təkamül prosesi

---

[1] Əliyev Heydər. Təhsil millətin gələcəyidir. Bakı, "Təhsil", 2002

[2] Rüstəmov F. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri. Bakı, 1998, s. 9

olan təhsilin dinamikasını müəyyənləşdirməyə, ali pedaqoji təhsili mükəmməl bünövrə üzərində qurmağa kömək edə bilər.

Azərbaycanda təhsil və pedaqoji fikir tarixinin araşdırılmasına keçən əsrin 70-ci illərindən başlanılmış, bu sahədə xeyli iş görülmüşdür. Azərbaycanda məktəb (Mehdi Mehdizadə, Hüseyn Əhmədov, Ağahəsən Rzayev, Hadı Rəfibəyli, Əsəd Yəqubi, Hümeyir Əhmədov, İsmət Məmmədova) və pedaqoji fikir tarixi (Əhməd Seyidov, Mərdan Muradxanov, Aben Kərimov, Əjdər Ağayev, Sürəyyə Əliyeva, İramin İsayev, Ellada Quliyeva, Ədalər Cəlilov, Sahilə Orucova, Bəhruz Nəsirov, Əliyənnağı Məhərrəmov, Fərid Baxşəliyev və b.) ilə bağlı ciddi və maraqlı araşdırmalar aparılmışdır. Vətən tarixinin tədqiqatçıları da (Nəzər Paşayev, Mehdi Salahov, Tamella Musayeva, Elmira Qasımova, Mais Əmrahov, Tahir Baxşəliyev və b.) Azərbaycanda ali pedaqoji təhsilin inkişafını fakt və rəqəmlərin fonunda təhlil etmişlər. Kollektiv monoqrafiyalarda ("Sovet Azərbaycanında ali məktəbin inkişafı", "Azərbaycanda xalq maarifinin sürətli inkişafı", "Azərbaycan ali məktəblərində IX və X beşilliklərdə elmin inkişafı") da bu məsələ diqqətdən kənarda qalmamışdır. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indiki ADPU), Kirovabad Dövlət Pedaqoji İnstitutu (indiki Gəncə Dövlət Universiteti) , Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu (indiki Bədən Tərbiyəsi və İdman Akademiyası), Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu (indiki Bakı Slavyan Universiteti), Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu (indiki Azərbaycan Dillər Universiteti), Naxçıvan Dövlət Pedaqoji İnstitutu (indiki Naxçıvan Dövlət Universiteti) və Xankəndi Pedaqoji İnstitutu ilə bağlı yazılan yubiley kitabları da Azərbaycanda ali pedaqoji təhsillin inkişaf tendensiyasını öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu tədqiqatlar Azərbaycanda təhsil, o cümlədən ali pedaqoji təhsil quruculuğunda əhəmiyyətli rol oynamışdır. XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda ali pedaqoji təhsil öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Onun inkişafı ziqzaqlı olmuşdur. Bir tərəfdən, maliyyə çətinlikləri, ictimai-siyasi vəziyyət tədris prosesinin keyfiyyətinə mənfiu təsi göstərmiş, digər tərəfdən, özəl ali təhsil müəssisələri yaranmış və sürətlə inkişaf etmişdir. Ulu öndər Heydər Əliyevin təkrar siyasi hakimiyyətə gəlişindən sonra bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ciddi nailiyyətlər əldə edilmişdir.

Azərbaycan Respublikası tarixi müstəqilliyini bərpa etdikdən sonra ali pedaqoji təhsilin inkişaf istiqamətinin öyrənilməsinə yönəlmiş elmi tədqiqatlar aparılmamışdır. Bütün bunları nəzərə alaraq respublikamızda

tarixi müstəqilliyin bərpasının ilk günlərindən başlayaraq ali pedaqoji təhsilin aktual problemlərinin araşdırılması, onun kompleks elmi problem kimi öyrənilməsi zərurəti yaranır.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikasında ali pedaqoji təhsilin təşəkkülü və inkişafı təşkil edir.

**Tədqiatın predmetini** 1991-2000-ci illərdə Azərbaycan Respublikasında ali pedaqoji təhsilin inkişaf istiqamətləri təşkil edir.

**Tədqiqatın məqsədi** Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafını şərtləndirən ictimai-siyasi və sosial-pedaqoji şəraiti, ali pedaqoji təhsil müəssisələrində inteqrasiya və diferensiasiya proseslərini təhlil etməkdən, müəllim kadrları hazırlığında ali pedaqoji təhsil müəssisələrinin rolunu üzə çıxarmaqdan, bu sahədə islahatları zəruri edən səbəbləri müəyyənləşdirməkdən, keyfiyyətli pedaqoji kadr hazırlığında maddi-texniki bazanın və eimi-metodki təminatın rolunu aşkar etməkdən, ali pedaqoji təhsil müəssisələrində pedaqoji və elmi-pedaqoji kadr hazırlığı sahəsində görülən işləri ümumiləşdirməkdən, ali pedaqoji təhsil sahəsində beynəlxalq əlaqələrin istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri** aşağıdakılardır:

- Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafını şərtləndirən ictimai-siyasi və sosial-pedaqoji şəraiti müəyyənləşdirmək;
- ali pedaqoji təhsil müəssisələrində inteqrasiya və diferensiasiya proseslərini təhlil etmək;
- müasir dövrdə Azərbaycanda müəllim kadrları hazırlığında ali pedaqoji təhsil müəssisələrinin rolunu müəyyənləşdirmək;
- ali pedaqoji təhsil sahəsində islahatları zəruri edən səbəbləri müəyyənləşdirmək;
- keyfiyyətli pedaqoji kadr hazırlığında maddi-texniki bazanın və eimi-metodki təminatın gücləndirilməsinin rolunu əsaslı dəlillərlə sübut etmək;
- ali pedaqoji təhsil müəssisələrində pedaqoji kadr hazırlığının əsas istiqamətlərini təhlil etmək;
- ali pedaqoji təhsil müəssisələri üçün elmi-pedaqoji kadr hazırlığını təhlil etmək;
- ali pedaqoji təhsil sahəsində beynəlxalq əlaqələrin pespektivlərini müəyyənləşdirmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətdiq olunan prinsiplər, metodlar, vasitələr və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları**: tarixi-müqayisəli metod, təhlil-tərkib metodu, induktiv və deduktiv metod, nəzəri təhlil, arxiv sənədlərinin öyrənilməsi.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafını şərtləndirən ictimai-siyasi və sosial-pedaqoji şərait, ali pedaqoji təhsil müəssisələrində inteqrasiya və diferensiasiya prosesləri təhlil edilir, müəllim kadrları hazırlığında ali pedaqoji təhsil müəssisələrinin rolu üzə çıxarılır, bu sahədə islahatları zəruri edən səbəblər müəyyənləşdirılır, keyfiyyətli pedaqoji kadr hazırlığında maddi-texniki bazanın və eimi-metodki təminatın rolu aşkar edilir, ali pedaqoji təhsil müəssisələrində pedaqoji və elmi-pedaqoji kadr hazırlığı sahəsində görülən işlər ümumiləşdirilir, ali pedaqoji təhsil sahəsində beynəlxalq əlaqələrin istiqamətləri müəyyənləşdirilir.

**Tədqiqtın nəzəri əhəmiyyəti** onunla şərtlənir ki, tarixi təcrübənin öyrənilməsi müasir dövrdə ali pedaqoji təhsilin yenidən qurulmasında, ali pedaqoji təhsilin məzmununu təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

**Tədqiaqtın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, ali pedaqoji təhsilin inkişaf problemləri üzrə pedaqogikaya dair tarixi bilikləri genişləndirməyə imkan verir. Bundan başqa pedaqoji kadr hazırlığının vəziyyətinin öyrənilməsinə, mövcud problemlərin araşdırılmasına, ali pedaqoji kadr hazırlığının daha səmərəli yol və vasitələrinin müəyyənləşdirilməsinə kömək edə bilər. Eyni zamanda tədqiqat işindən ali pedaqoji təhsilin tarixi üzrə yeni tədqiqat işlərinin aparılmasında, təhsil tarixi ilə bağlı mühazirə və seminar məşğələlərində, biblioqrafiya və antologiyaların hazırlanmasında istifadə edilə bilər.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır**:

-Azərbaycanda ictimai - siyasi və sosial-pedaqoji şərait ali pedaqoji təhsilin təşəkkülü və inkişafını şərtləndirmişdir;

- ali pedaqoji kadr hazırlığının keyfiyyəti bu bə ya diğər dərəcədə pedaqoji təhsil müəssisələrində inteqrasiya və diferensiasiya proseslərindən asılı olmuşdur;
- Azərbaycanda müəllim kadrları hazırlığında dövlət və özəl ali pedaqoji təhsil müəssisələrinin mühüm rolu olmuşdur;
- keyfiyyətli, səriştəli ali təhsilli müəllim kadrlarının hazırlanmasına tələbat pedaqoji təhsil sahəsində islahatları zəruri etmişdir;
- keyfiyyətli pedaqoji kadr hazırlığı maddi-texniki bazadan və eimi-metodiki təminatdan asılıdır;

- təhsil sahəsində beynəlxalq əlaqələrin yaranması ali pedaqoji təhsilin yeni istiqamətdə və yeni məzmunda inkişafını təmin etmişdir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas məzmunu və nəticələri Respublika aspirant və dissertantlarının elmi konfranslarında dinlənilmiş, tezis və məqalələr şəklində çap olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissetasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## Tədqiqatın əsas məzmunu

**Girişdə** movzunun aktuallıgı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodoloji əsası, metodları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmişdir.

Dissertasiyanın **"Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafı tarixindən ( XX əsrin 20-80-ci illəri)"** birinci fəslin ilk yarımfəsli *"Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafını şərtləndirən ictimai-siyasi və sosial-pedaqoji şərait"* adlanır. Burada əsaslandırılır ki, Azərbaycanın Rusiya tərəfindən işğalından sonra Şimali Azərbaycan islam-türk dünyasında gedən proseslərdən ayrıldı, Şərq ölkələri ilə çoxəsrlik əlaqələr qırıldı. Rus-Avropa elmi-mədəni fikri Şərq xarakterli Azərbaycanın mədəni, ictimai təfəkkürünü üstələdi. Çar Rusiyası Azərbaycanda ruslaşdırma və xristianlaşdırma siyasətini həyata keçirmək üçün təhsil sahəsində müəyyən dəyişikliklər etmək məcburiyyətində qaldı.

XX əsrin əvvəllərində baş verən ictimai-siyasi hadisələr bir çox məsələlərə yeni abu-hava gətirdi. Müstəqillik uğrunda mübarizə gücləndi. Zaman-zaman azadlıq uğrunda aparılan mübarizə, nəhayət ki, 1918-ci ildə ADR-in yaranması ilə nəticələndi. Qısa bir müddətdə Azərbaycan Demokratik Hökumətinin göstərişi ilə məktəblər milliləşdirildi, yeni məktəblər yaradıldı, milli məfkurəli müəllim kadrları hazırlığına başlanıldı, yeni dərslik və dərs vəsaiti hazırlandı, təhsili idarə edən xüsusi orqan (Maarif Nazirliyi) yaradıldı, xaricə oxumaq üçün 100 nəfər tələbə göndərildi. Ən əsası isə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazax şəhərinə köçürüldü, Bakı Dövlət Universiteti yaradıldı.

1920-ci ilin aprel ayının 28-də ADR süqut etdi, Azərbaycan Sovet Sosialist Respublikası elan olundu. Yeni respublikanın müstəqilliyi RSFSR tərəfindən tanınsa da, o, Rusiya nümayəndələri tərəfindən

idarə olunurdu. Bu, V.İ.Leninin, eləcə də RK(b)P MK-nın mövqeyi idi. Azərbaycan SSR-in nəinki siyasi fəaliyyəti, eləcə də iqtisadiyyatı ruslar tərəfindən idarə olunurdu. Bütün bunlara baxmayaraq 1920-1940-cı illər Azərbaycanda mədəni həyatın bütün sahələrində partiya və dövlət nəzarətinin, sosialist ideyalarının, təhsilin səviyyəsinin artırılması və gücləndirilməsi dövrü olmuşdur. Mədəniyyət sahəsində idarəetmənin həddindən artıq mərkəzləşdirilməsi mədəni quruculuğunun azad, demokratik inkişafını məhdudlaşdırır, bəzi hallarda milli mədəniyyətin mənafeyinə zərər vururdu. Eyni zamanda həmin illərdə əhali elliklə mədəni quruculuq işlərinə səfərbər edilir, ölkənin hər yerində mədəni quruculuq işləri həyata keçirilir, savadsızlığa qarşı mübarizə aparılırdı. Bu işdə Sovet Rusiyasının təhsil modeli əsas götürüldü. Vahid dünyəvi əmək məktəbi, oğlanlarla qızların birgə təhsili, pulsuz təhsil, təhsildə hüquq bərabərliyi prinsipləri önə çəkilirdi.

XX əsrin 20-ci illərində Azərbaycanda təhsilin inkişafı üçün güclü hüquqi normativ baza yaradıldı. 10 may 1920-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən Azərbaycanda sovet maarif sisteminin qurulmasının hüquqi əsaslarını müəyyən edən (yeni sovet məktəb yaratmaq haqqında) dekret imzalandı. Az sonra (1920-ci il 26 may) Azərbaycan SSR Xalq Maarif Komissarlığının Kollegiyası tərəfindən «Azərbaycan SSR vahid əmək məktəbi haqqında» Əsasnamə təsdiq edildi. Azərbaycanda təhsilin məzmunu ciddi dəyişikliyə məruz qaldı, tədris planları dəfələrlə dəyişdirildi və təkmilləşdirildi. Qısa bir vaxtda Azərbaycanın müxtəlif bölgələrində məktəblər açıldı. Həmin dövrdə əhali arasında savadsızlığı ləğv etmək təhsilin təməl prinsiplərindən biri sayılırdı. Respublikada ümumtəhsil məktəblərinin inkişafına böyük diqqət göstərilirdi. 1920-ci ildə cəmi 965 ümumtəhsil məktəbi vardı. Bu məktəblərdə 79,4 min şagird oxuyurdu. Bu, heç də hamının təhsilə cəlb edilməsi deyildi. 700 mindən çox məktəbyaşlı, o cümlədən 180 mindən artıq kimsəsiz uşaq təhsildən kənarda qalmışdı. Məktəblərin maddi-texniki bazasının təşkili və pedaqoji kadrların hazırlanması üçün yaradılan şərait nəticəsində orta təhsil sistemində irəliləyiş nəzərə çarpırdı.

Azərbaycanda Qori Müəllimlər Seminariyasının təcrübəsi ilə yaxşı tanış olan maarifçilər müəllim seminariyalarının təşkilinə xüsusi əhəmiyyət verirdilər. 1920-ci ilin yayında Nuxada (Şəkidə) Müəllimlər Seminariyası təşkil olundu. 1921-ci ildə Müəllimlər Seminariyası haqqında «Əsasnamə» təsdiq edildi. Qubada, Lənkəranda, Zaqatalada

Müəllim Seminariyaları yaradıldı. 1923-1924-cü tədris illərində Gəncə Türk Pedaqoji məktəbi təşkil edildi. 1924-cü ildə artıq Azərbaycanda 13 seminariya fəaliyyət göstərirdi ki, bunlarında içərisində Qazax Müəllimlər Seminariyası, Naxçıvan Müəllimlər Seminariyası, xüsusi ilə, seçilirdi. 1926-cı ildə Bakı kişi və qadın Müəllimlər Seminariyaları birləşdirildi. Onların əsasında M.Ə.Sabir adına Pedaqoji Texnikum fəaliyyətə başladı. Sonrakı illərdə Respublikada müəllim kadrları hazırlığına olan ehtiyacı ödəmək məqsədi ilə yeni pedaqoji məktəblər yaradıldı. 1947-1948-ci tədris illərində respublikada 17 pedaqoji məktəb fəaliyyət göstərirdi. Respublikada təşkil edilən pedaqoji məktəblər Azərbaycan ümumtəhsil məktəbinin ehtiyacını ödəmirdi. Respublika məktəblərinin ali təhsilli müəllimlərə böyük ehtiyacı var idi. 1919-cu ildə təşkil edilən Bakı Dövlət Universiteti pedaqoji kadrlara olan ehtiyacı ödəyə bilmirdi. Hələ ADR dövründə pedaqoji ali məktəbin yaradılması haqqında müzakirələr getsə də, onu reallaşdırmaq mümkün olmamışdı. Respublikanın II dərəcəli məktəbləri və orta ixtisas təhsil ocaqları üçün pedaqoji kadrlar hazırlamaq məqsədi ilə Azərbaycan Xalq Maarif Komissarlığının 1920-ci il 17 noyabr tarixli qərarı ilə Bakıda birillik Ali Pedaqoji kurslar açıldı. Təbiyyat-coğrafiya, fizika-riyaziyyat və tarix-filologiya şöbələrindən ibarət olan həmin kurslarda tədris xüsusi proqram üzrə Azərbaycan və rus dillərində aparılırdı. Gündüz məktəblərində çalışan müəllimləri kurslara cəlb etmək məqsədi ilə dərslər axşam keçirilirdi.

Sovet hakimiyyətinin ilk illərində respublikada ali təhsilli pedaqoji kadrlara olan ehtiyacı ödəmək məqsədi ilə 1921-ci ildə Azərbaycan Xalq Komissarlar Sovetinin sədri Nəriman Nərimanov «Azərbaycan Kişi Pedaqoji İnstitutunun təsis edilməsi haqqında» dekret imzaladı. Qısa bir müddətdə ali pedaqoji məktəb təşkil olundu və fəaliyyətə başladı.

Yeni müəllim kadrları hazırlamaq dövlətin siyasətinin əsas istiqamətlərindən biri idi. Bu, 2 yolla həyata keçirilirdi. Bir tərəfdən qısa müddətli pedaqoji kurslar açılır, digər tərəfdən müəllimlər seminariyası təşkil edilirdi. İkinci dərəcəli və orta ixtisas məktəblərini ana dilində dərs deyə bilən fənn müəllimləri ilə təmin etmək üçün görülən tədbirlər öz əməli nəticəsini vermişdi. Azərbaycan pedaqoji İnstitutunda 1924-1927-ci illərdə 198 nəfər ali təhsilli müəllim hazırlanmışdı[3]. Təsərrüfat

---

[3] M.Mehdizadə. Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, «Azərtədrisnəşr», 1958, s. 113

çətinliklərinə baxmayaraq müəllimlərin maddi-mədəni şəraitlərin yaxşılaşdırılması, əmək haqlarını vaxtında alması ilə bağlı tədbirlər görülmüşdür. 1920-1922-ci illərdə ehtiyac nəticəsində müəllimlik işinə biliyi və savadı son dərəcə aşağı olan bəzi insanlar da cəlb edilmişdi. Az sonra məlum oldu ki, onlar işin öhdəsindən gələ bilmir, tədricən onların ya pedaqoji kursdan keçərək təkmilləşdirilməsi, ya da məktəbdən uzaqlaşdırılması prosesinə başlanıldı. Müəllimlərin gərgin əməyinin nəticəsi idi ki, qısa bir müddət ərzində 1930-1934-cü illərdə icbari ibtidai təhsil, 1935-1958-ci illərdə yeddiillik təhsil, 1959-1966-cı illərdə səkkizillik təhsil, 1967-1975-ci illərdə icbari ümumi orta təhsil həyata keçirildi. Az sonra Azərbaycanda müəllim kadrları hazırlığını həyata keçirən ali məktəblərin bütöv şəbəkəsi yaradıldı. 1971-1975-ci ildə 3 yeni ali pedaqoji məktəb (SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu (1972), Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu (1972), Xankəndi Dövlət Pedaqoji İnstitutu (1973) yaradıldı.

XX əsrin 20-30-cu illərində müəllim kadrlarının çatışmaması, onların ixtisas səviyyəsinin aşağı olması məktəb quruculuğunda əsas problbemlərdən biri idi. Ona görə də 1922-ci ildə müəllimlərə elmi və metodik kömək göstərmək məqsədi ilə Bakı Xalq Maarifi İnstitutu yaradıldı. O dövrdə müəllim kadrlarının ixtisasının artırılması ilə bağlı görülən tədbirlər nəticəsində orta və ali təhsilli müəllim kadrlarının xüsusi çəkisi 3%-dən 42,6%-ə qədər yüksəldi. Həmin dövrdə müəllim kadrları hazırlığında, onların ixtisasının artırılmasında, seçilib yerləşdirilməsində pərakəndəlik hökm sürsə də bu sahədə müəyyən irəliləyişə təkan verdi. Müəllimlərin yenidən hazırlanması və ixtisasının artırılmasında Xalq Maarif Komissarılığı Kollegiyasının 13 iyul 1929-cu il tarixli qərarı ilə yaradılan Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması İnstitutu mühüm rol oynadı. Azərbaycan SSR Xalq Komissarları Sovetinin 25 may 1939-cu il tarixli qərarına əsasən, ali qiyabi təhsili və müəllimlərin ixtisasının artırılması vəziyyətini yaxşılaşdırmaq məqsədilə Pedaqoji Kadrların İxtisasının Artırılması İnstitutu Müəllimləri Təkmilləşdirmə İnstitutuna (MTİ) çevrildi. İnstitutun elmi-metodik potensialı gücləndirildi. Həmin dövrdə Xalq Maarif Komissarlığının əmrinə əsasən, rayon mərkəzlərində pedaqoji kabinetlər təşkil edildi və institutla rayon kabinetləri arasında sıx əlaqə yaradıldı. 1966-1970-ci illərdə kurslara 41200 nəfər cəlb edildi, tədris-

metodika kabinetlərinin sayı 20-yə çatdırıldı. 1972-ci ildə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutu Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutuna çevrildi. 80-ci illərin sonunda həmin institutun bazasında Azərbaycan Baş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutu təşkil olundu.

30-cu illərdə Bakı şəhərinin ümumtəhsil məktəblərində işləyən müəllimlərin ixtisasının artırılmasına, təkmilləşdirilməsinə və yenidən hazırlanmasına böyük ehtiyac yarandı. Bu məqsədlə Azərbaycan SSR Xalq Komissarları Sovetinin 15 aprel 1939-cu il tarixli qərarı ilə Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutu təşkil olundu. Həmin qərara əsasən İnstitut Bakı Xalq Maarifi Şöbəsi yanında ali məktəb statusunda fəaliyyətə başladı və uzun müddət səmərəli fəaliyyət göstərdi. Ümumiyyətlə, sovet hakimiyyəti illərində Azərbaycanda ali pedaqoji təhsilin inkişafı üçün zəngin mühit və şərait var idi. Sovet hökuməti ilk gündən hüquqi normativ sənədlərdə, təhsil haqqında qərar və göstərişlərdə irqi və milli mənsubiyyətindən, cinsindən, dinə münasibətindən və ictimai vəziyyətindən asılı olmayaraq bütün vətəndaşların ümumi, icbari və pulsuz təhsil hüququnu təsbit etdi, onun reallaşması istiqamətində mühüm dövlət tədbirləri həyata keçirdi.

*"Ali pedaqoji təhsil müəssisələri şəbəkəsinin yaranması: inteqrasiya və diferensiasiya prosesləri"* adlı ikinci yarımfəsildə əsaslandırılır ki, XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda ali təhsilli kadr hazırlığı dövlətin təhsil siyasətinin mühüm istiqamətlərindən birini təşkil edirdi. Qeyd edək ki, Azərbaycan Demokratik Respublikası dövründə verilən bütün qərar və göstərişlər sovet hakimiyyətinin ilk illərində ləğv edildi. Yalnız Bakı Dövlət Universitetinin təşkili ilə bağlı verilən qərar qüvvədə saxlanıldı. Universitetin təşkili, genişləndirilməsi, maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı xeyli mütərəqqi işlər görüldü. Az sonra Azərbaycan Dövlət Konservatoriyası yaradıldı. Bunlardan sonra isə Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov «Azərbaycanda Kişi Pedaqoji İnstitutunun təsis edilməsi haqqında» dekret imzaladı. Azərbaycan XMK-nın 1921-ci ilin iyun ayının 13-də keçirilən kollegiyası Ali Pedaqoji Kişi İnstitutunun ilk Əsasnaməsi və Nizamnaməsini təsdiq etdi. İnstitutda təhsil müddəti 3 il idi. Tədris ili 40 həftə müəyyən edilmişdi. İnstitutun nəzdində tələbələr üçün 40 nəfərlik pansionat və təcrübə aparmaq üçün orta məktəbə bərabər

«Nümunə məktəbi» təşkil edilməsi qərara alındı. Ali Pedaqoji İnstitutda dərslər oktyabrın 1-də deyil, noyabrın 15-də cəmi 6 nəfər tələbə ilə başladı.

Azərbaycan hökumətinin 20-ci illərdə pedaqoji təhsil sahəsində gördüyü tədbirlərdən biri də qadınların ali pedaqoji təhsilinin təşkili idi. Yeni həyat quruculuğunda qadınların iştirakını təmin etmək, xüsusilə, onların təhsil almaları üçün geniş imkanlar yaratmaq vacib məsələlərdən biri sayılırdı. N.Nərimanov respublikada ali pedaqoji qadın təhsili müəssisəsinin yaradılmasına xüsusi əhəmiyyət verirdi. Onun təşəbbüsü və köməyi ilə Bakıda Məktəbəqədər Qadın Tərbiyə İnstitutu açıldı. Azərbaycan XKS-nın 1920-ci il 25 dekabr tarixli, 11 saylı dekretində deyilirdi: «Məktəbəqədər tərbiyə sahəsində təcrübəli kadrlar və rəhbər işçilər hazırlamaq, həmçinin qadınlar arasında tərbiyə işlərini yaymaqdan ötrü 1921-ci ilin mart ayının 1-dən etibarən Bakıda birinci Azərbaycan Qadın Məktəbəqədər Tərbiyə İnstitutu açılsın». İnstitut II dərəcəli məktəblər üçün qadın müəllimləri hazırlayırdı. 1921-22-ci dərs ilində institutda 54 tələbə vardısa, bir il sonra onların sayı 115 nəfərə çatdı. Lakin Məktəbəqədər Qadın Tərbiyə İnstitutunun fəaliyyəti çox davam etmədi. Respublikada ali təhsilli qadın müəllimlərə böyük ehtiyac olduğuna görə o, Qadın Pedaqoji İnstitutuna çevrildi. 1926-cı ilin dekabr ayının 1-nə olan məlumata görə, respublikanın iki ali pedaqoji institutunda təhsil alan 302 nəfər tələbənin 165-i kişi, 137-i qadın idi. 302 nəfər tələbənin 287-si azərbaycanlı idi (bunların 150-si kişi, 137-si isə qadın). İki institutda cəmi 68 müəllim çalışırdı. 1924/25-ci dərs ilində Ali Pedaqoji Kişi İnstitutu və Ali Pedaqoji Qadın İnstitutu inzibati cəhətdən Azərbaycan Pedaqoji İnstitutu şəklində birləşdirildi. Növbəti tədris ilinin (1926/27) sonunda Ali Pedaqoji İnstitutun 76 nəfərdən ibarət dördüncü buraxılışı oldu. Bu, institutun Bakı Dövlət Universitetinin pedaqoji fakültəsinin tərkibinə verilməsi ərəfəsində son buraxılışı idi.

Yarımfəsildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin təşkili ilə bağlı çətinliklər təhlil olunur, respublikada ali pedaqoji təhsilin formalaşmasında zəhməti olan insanların əməyi dəyərləndirilir. Ali pedaqoji təhsil müəssisəsinin açılmasının çətinliklərinin obyektiv və subyektiv səbəbləri təhlilə cəlb olunur. Əsaslanadırılır ki, ali pedaqoji təhsil müəssisəsinin (APİ-nin) təşəkkülü və inkişafı heç də asan olmamışdır. İki dəfə ADPİ Azərbaycan Dövlət Universiteti ilə birləşdirilmişdir.

1930-cu ildə Bakıda ZSFSR hökumətinin qərarı ilə Bakıda Zaqafqaziya Bədən Tərbiyəsi İnstitutu açıldı. 1936-cı ildə Zaqafqaziya Federasiyasının

ləğv olunması ilə əlaqədar olaraq 1936-cı ildə ZDBTİ-nin adı dəyişdirilərək Az.DBTİ adlandırıldı. 1932-ci ildə respublikada ali məktəblərin sayı 19-a çatmış, onlarda təhsil alan tələbələrin sayı isə 10,6 min olmuşdu. Bunların 50 faizdən çoxunu azərbaycanlılar təşkil edirdi[4].

1938-ci il martın 13-də ÜİK(b)P MK-nın və SSRİ XKS-in "Milli respublikaların və vilayətlərin məktəblərində rus dilinin məcburi öyrənilməsi haqqında" qərarına müvafiq olaraq, 1938/39-cu tədris ilində V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində rus dili və ədəbiyyatı şöbələri açıldı. Az sonra rus dili müəllimləri hazırlamaq üçün M.F.Axundov adına Müəllimlər İnstitutu təsis edildi[5].

Ali qiyabi təhsilin də bünövrəsi qoyuldu. 30-cu illərin əvvəllərində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi fakültələri bazasında 1936-cı ildə müstəqil Qiyabi Pedaqoji İnstitut yaradıldı[6]. Qiyabi ali pedaqoji təhsil sistemində tez-tez baş verən təşkilati dəyişikliklər, onun normal fəaliyyətinə mane olurdu. Azərbaycan XMK-nın 1936-cı il 8 avqust tarixli əmrinə əsasən qiyabi şöbə yenidən APİ-dən ayrılıb Xalq Maarifi üzrə Kadrların İxitsasını Artırma İnstitutuna birləşdirildi. 1937-ci ildə qiyabi şöbənin müstəqil Qiyabi Pedaqoji İnstituta çevrilməsi haqqında xüsusi qərar qəbul edildi və APİ-də iki ali məktəb fəaliyyət göstərməyə başladı.

Orta məktəblərdə xarici dil fənlərindən dərs deyən yüksək ixitsaslı müəllimlər hazırlamaq üçün Azərbaycan XMK-nın 1937-ci il 5 mart tarixli əmri ilə V.İ.Lenin adına APİ-də və İkiillik Müəlilmlər İnstitutunda həmin ilin sentyabr ayının 1-də xarici dillər fakültəsi və kafedrası açıldı[7].

Azərbaycan Xalq Komissarları Sovetinin 5 sentyabr 1941-cı il tarixli əmri ilə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutu Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsinə çevrildi. 1936-cı ildə APİ-nin xarici dillər fakültəsinin bazası əsasında təşkil

---

[4] Quliyev D. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası. Bakı, 2010, s. 229

[5] Азербайджанский педагогический институт русского языка и литературы им. М.Ф.Ахундова (1946-1996). Баку, Мутарджим, 1996, с. 8

[6] Məmmədov Y. Azərbaycan Dövlət Pedaqoji Universiteti -90. Bakı, "Təhsil", 2012, s. 66

[7] Mehdizadə M.M., Allahverdiyev T.Ə., Əliyev Q.H. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. B.: Maarif, 1980, s. 230

edilmiş Xarici Dillər İnstitutu isə müvəqqəti olaraq yenidən APİ-nin xarici dillər fakültəsinə çevrildi. Beləliklə, APİ-nin tərkibində ingilis, fransız, alman dilləri şöbələri fəaliyyətə başladı.

1943-1944-cü tədris ilində Quba, Ağdam, Qazax və digər şəhərlərində müəllimlər institutu açıldı. Nuxa Müəllimlər İnstitutunda 197 nəfər, Quba Müəllimlər İnstitutunda 175 nəfər, Qazax müəllimlər institutunda 226 nəfər, Naxçıvan Müəllimlər İnstitutunda 150 nəfər, Şuşa Müəllimlər İnstitutunda 345 nəfər, Ağdam Müəllimlər İnstitutunda 97 nəfər, ümumiyyətlə adı çəkilən altı müəllimlər institutunda 1091 nəfər təhsil alırdı.

Müəllimlər hazırlamaq işini genişləndirmək məqsədilə 1946-cı ildə Bakıda Azərbaycan Dövlət ikiillik Müəlilmlər İnstitutu təşkil edildi. İnstitut SSRİ XKS-nin 2 fevral 1946-cı il sərəncamı və Azərbaycan SSR XKS-nin 15 may 1946-cı il qərarına əsasən təşkil edildi[8]. İnstitut milli məktəblər üçün rus dili və ədəbiyyatı müəllimləri hazırlayırdı.

ADPİ-nin xarici dillər fakültəsi 1948/49-cu dərs ilindən etibarən müstəqil Xarici Dillər Pedaqoji İnstitutuna çevrildi[9].

Azərbaycan Qiyabi Pedaqoji İnstitutu bütünlüklə, Kirovabad Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsi isə həmin ilin (1959-cu ilin) iyul ayının 1-də ADPİ-yə birləşdirildi[10].

1959-1960-cı tədris ilinin əvvəlində Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutu Azərbaycan Dövlət Pedaqoji İnstitutu ilə, Xarici dillər Pedaqoji İnstitutu isə M.F.Axundov adına Azərbaycan Dövlət İnstitutu ilə birləşdirildi[11]. Bu birləşmə onu göstərirdi ki, Azərbaycanda pedaqoji ali təhsilin inkişafı strategiyası işlənib hazırlanmamışdı. 60-cı illərin əvvəllərində Azərbaycanda ali pedaqoji təhsil ləng də olsa inkişaf edirdi, respublikada üç ali pedaqoji institut fəaliyyət göstərirdi. Pedaqoji ali məktəblərin əksəriyyətinin maddi-texniki bazası çox zəif idi. 70-ci illər respublikada xarici dil müəllimlərinin hazırlanmasında yeni bir mərhələ idi. Xarici dil

---

[8] Азербайджанский педагогический институт русского языка и литературы им. М.Ф.Ахундова (1946-1996). Баку, Мутарджим, 1996, с. 8.
[9] Əliyev Ə. Azərbaycan Dillər Universitetinin tarixi. Bakı, Azərnəşr, 2005, s. 112
[10] Məmmədov Y. Azərbaycan Dövlət Pedaqoji Universiteti -90. Bakı, "Təhsil", 2012, 432 s.
[11] Əliyev Ə. Azərbaycan Dillər Universitetinin tarixi. Bakı, Azərnəşr, 2005, s. 244

müəllimlərinə olan tələbatı ödəmək məqsədilə 1973-cü ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun xarici dillər fakültələri əsasında Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu təşkil edildi.

Azərbaycanın digər bölgələrində: Naxçıvan Muxtar Respublikasının və Dağlıq Qarabağ Muxtar Vilayətinin məktəblərində müəllim kadrları çatışmazlığını nəzərə alaraq 1967/68-ci tədris ilində APİ-nin Naxçıvan filialı, 1968/69-cu tədris ilində isə Xankəndi filialı yaradıldı. Azərbaycan SSR Nazirlər Sovetinin 12 iyul 1972-ci il tarixli qərarına əsasən APİ-nin bazası əsasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu, 28 noyabr 1973-cü il tarixli qərarına əsasən Xankəndi Dövlət Pedaqoji İnstitutu yaradıldı. Bütün ali təhsil müəssisələri üçün APİ həqiqətən elmi-metodik baza olmuş, onların gələcək inkişafında bu institutun müsbət ənənələri tarixi rol oynamışdır.

Dissertasiyanın **“Müasir dövrdə Azərbaycanda müəllim kadrları hazırlığında ali pedaqoji təhsil müəssisələrinin rolu”** adlanan ikinci fəslin *“Ali pedaqoji təhsil sahəsində islahatlar: ali pedaqoji təhsil şəbəkəsinin genişləndirilməsi və idarəetmənin təkmilləşdirilməsi”* adlı ilk yarımfəslində əsaslandırılır ki, 1991-ci il oktyabrın 18-də “Azərbaycanın dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul edilməsi ilə 1920-ci ildə itirimiş müstəqillik bərpa edildi. Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini elan etməsi XX əsrin 80-ci illərinin sonunda dünyada baş verən ictimai-siyasi proseslərin məntiqi nəticəsi idi. Milli respublikalarda azadlıq uğrunda gedən qanlı mübarizələr bu prosesi daha da sürətləndirdi.Azərbaycan zaman-zaman uğrunda şəhidlər verdiyi müstəqilliyinə qovuşdu. Xalqın təkidli tələbi ilə Ulu öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gəldi. Dövləti idarəetmədə qrup maraqlarını ifadə edən yanaşmaya, xaos, hərc-mərcilk və müharibədəki uğursuzluqlar, iqtisadi, siyasi maraqları, milli təhlükəsizliyi, ərazi bütövlüyünün təmin olunmasını təhlükə altına qoyan xarici və daxili siyasət, fərdi, ictimai və milli şüurda haçalanmaya son qoyuldu.

Azərbaycanda təhsilin, o cümlədən ali pedaqoji təhsilin dinamik inkişafında böyük nailiyyətlər əldə edildi. Sürətli dəyişikliklərin baş verdiyi müasir dünyada məhz təhsil sosial-iqtisadi və mədəni sahələrdə davamlı inkiaşfa təkan verən real qüvvə hesab edildi.

XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda ali pedaqoji təhsilin inkişafında yeni mərhələ başladı. İqtisadi və siyasi çətinliklərə baxmayaraq ölkənin ümumtəhsil məktəbləri üçün müəllim kadrları

hazırlığı davam etdirildi. Müəllim kadrları hazırlığında kəmiyyət keyfiyyəti üstələdi. Ali təhsil sistemində tədris prosesinin pozulması adi hal aldı. Müəllimlərin sosial vəziyyətinin aşağı olması yüksək elmi potensiala malik bəzi alimlərin Türkiyəyə, İrana və Rusiyaya getməsinə səbəb oldu.

Yeni cəmiyyətin əsasını təşkil edən təhsilin normativ-hüquqi bazasını yaratmaq üçün müəyyən tədbirlər həyata keçirildi. Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə "Təhsil qanunu" qüvvəyə mindi. Tələsik hazırlanmış bu qanunda müəyyən çatışmazlıqlar olsa da, mütərəqqi cəhətləri çox idi. Belə ki, burada ali təhsildə çoxpilləli sistemə keçilməsi, qeyri-dövlət təhsil müəssisələrinin yaradılması, ali təhsil müəssisələrinin akkreditasiyadan keçirilməsi, təhsil müəssisəsi rəhbərlərinin seçki yolu ilə müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur. Təhsil qanununa uyğun olaraq həmin illərdə Azərbaycanda özəl ali təhsil müəssisələri (Azərbaycan Universiteti, Qafqaz Universiteti, Qərb Universiteti, Bakı Asiya Universiteti, Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti, Odlar Yurdu Universiteti, Bakı Avrasiya Universiteti, Bakı Qızlar Universiteti, Naxçıvan Özəl Universiteti, Azərbaycan İctimai-siyasi Universitet) yaradıldı. 1993-1994-cü tədris ilində ali təhsildə iki pilləli (bakalavriat və magistratura) sistemə keçildi.

90-cı illərin ikinci yarısında cəmiyyətin tələbatına uyğun olaraq təhsil sisteminin bütün pillə və səviyyələrində islahatların aparılması zərurəti meydana çıxdı. Ulu öndər Heydər Əliyevin 30 mart 1998-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasınada təhsil sahəsində İslahatlar üzrə Dövlət Komissiyası" yaradıldı. Komissiyanın hazırladığı "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" 15 iyun 1999-cu ildə təsdiq edildi.

İslahat proqramında ali təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, onlara müəssisədaxili maliyyə sərbəstliyinin verilməsi, maddi-texniki bazasının gücləndirlməsi, idarə olunmasının təkmilləşdirlməsi, tədris və elmi-metodiki təminatın gücləndirlməsi, təhsil sistemi iqtisadiyatının yeni modelinin yaradılması, ali pedaqoji kadr hazılığında çevikliyin və dinamikliyin təmin edilməsi, ali pedaqoji təhsilin məzmununda ciddi dəyişikliklərin aparılması nəzərdə tutulmuşdu.

Ulu öndər Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli fərmanı ilə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" sənəd təsdiq olundu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli 349 nömrəli Fərmanı ilə məktəbəqədər tərbiyə müəssisələri və məktəblərin ibtidai sinifləri üçün

pedaqoji kadrlar hazırlamaq, habelə müəllimlərin ixtisaslarının artırılması, təkmilləşdirilməsi və yenidən hazırlanmasını təmin etmək məqsədi ilə Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun bazasında Azərbaycan Müəllimlər İnstitutu və 11 filialı (Ağcabədi filialı, Cəlilabad filialı, Gəncə filialı, Qazax filialı, Quba filialı, Mingəçevir filialı, Salyan filialı, Sumqayıt filialı, Şamaxı filialı, Şəki filialı, Zaqatala filialı ) yaradıldı.

90-cı illərin ikinci yarısında bakalavriat və magistratura pilləsində minimum dövlət tələblərini müəyyən edən sənədlər qəbul edildi.

2000-ci ildən sonra da ali pedaqoji təhsil sahəsində xeyli dəyişikliklər baş verdi. 2005-ci ildə Azərbaycan Boloniya prosesinə qoşuldu. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa təhsil məkanına inteqrasiyası proseslərini sürətləndirmək məqsədi ilə Azərbaycan Respublikası prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa təhsil məkanına inteqrasiyası" ilə bağlı 31 yanvar 2008-ci il tarixli sərəncamı imzalandı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il tarixli qərarı ilə "Ali təhsilin bakalavr səviyyəsi ixtisaslarının (proqramların) siyahısı" təsdiq olundu.

Deməli, 90-cı illərin əvvəllərindən başlayaraq təhsilin hüquqi-normativ bazasının yaradılması dövlətin və Təhsil Nazirliyinin diqqət yetirdiyi ən mühüm məsələlərdən biri olmuşdur. Təhsilin normativ-hüquqi bazasının yaradılması üçün 56 sənəd hazırlanıb təsdiq olunmuşdur.

*"Ali pedaqoji təhsil müəssisələrində pedaqoji kadr hazırlığı"* adlı ikinci yarımfəsildə 1990-2000-ci illərdə Azərbaycanda ali pedaqoji təhsil müəssisələrində pedaqoji kadr hazırlığının əsas istiqamətləri təhlilə cəlb olunur. Əsaslandırılır ki, 90-cı illərin əvvəllərində pedaqoji kadr hazırlığında baş verən əlamətdar hadisələrdən biri Azərbaycan Respublikası Nazirlərt Kabinetinin 1991-ci il tarixli qərarı ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna "Universitet" statusunun verilməsi oldu. Bu, universitet həyatında canlanmaya səbəb oldu. Kadr siyasətini sərbəst həyata keçirmək, büdcəyə daxil olan əlavə vəsaitdən tələbata müvafiq şəkildə istifadə etmək, xarici ölkələrin ali təhsil müəssisələri və elmi-tədqiqat mərkəzləri ilə əlaqə saxlamaq, müəllim və tələbə mübadiləsi etmək imkanı verildi. Pedaqoji təhsilin keyfiyyətinin yüksəldilməsi, müasir beynəlxalq təcrübə və milli ənənələr əsasında onun məzmununun və strukturunun yeniləşdirilməsi, təlim –tərbiyənin vahidliyinin təmin olunması, pedaqoji təhsil müəssisələrinin rolunun artması vacib məsələlərdən birinə çevrildi. Pedaqoji kadr

hazırlığında flaqman rolu oynayan Azərbaycan Dövlət Pedaqoji Universitetinə əgər 1991-1992-ci illərdə cəmi 1128 nəfər tələbə qəbul olunmuşdursa, 10 ildən sonra bu rəqəm 1357 nəfərə çatmışdır.

Azərbyacn Dövlət Pedaqoji Universitetində 1999-2000-ci il tədris ilindən başlayaraq fransız dili üzrə müəllim kadrları hazırlığına başlanıldı. İndiki Bakı Slavyan Universiteti 90-cı illərin əvvəllərində Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu adlandırdı. İnstituta 1993-cü ildə bakalavriat səviyyəsinə 419 nəfər tələbə qəbul olundu. 2 il sonra bakalavriat səviyyəsinə ödənişli əsaslarla da tələbə qəbulu həyata keçirildi. M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun bazasında Bakı Slavyan Universiteti yaradıldı. 1991/1992-ci tədris ilində BSU-ya 746 nəfər, 2010/2011-ci tədris ilində 773 nəfər tələbə qəbul olunmuşdur.

BSU-da 1990/1991-ci ildə tələbələrin ümumi sayı 5542, 2010/2011-ci tədris ilində 3019 nəfər olmuşdur.

90-cı illərin əvvəllərində SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun həyatında mühüm dəyişikliklər baş verdi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 noyabr 1991-ci il tarixli qərarı ilə institutun adından «SSRİ-nin 50 illiyi» sözləri götürüldü. 16 sentyabr 1992-ci ildə isə institut Azərbaycan Dövlət Dillər İnstitutuna çevrildi. 1994/1995-ci tədris ilində ADDİ-yə 596 nəfər tələbə qəbul olunub. Elə həmin ildə ödənişli tələbə qəbulu həyata keçirildi. 1996/1997-ci tədris ilində universitetin əyani şöbəsini 5 illik təhsil üzrə 507 nəfər, bakalavriat səviyyəsini isə 600 nəfər, cəmi 1107 nəfər bitirdi. ADU-da 1991/1992-ci ildə təhsil alan tələbələrin ümumi sayı 2545 nəfər idisə, 2010/2011-ci tədris ilində 4112 nəfər olmuşdur[12].

Respublikamız üçün ixtisaslı bədən tərbiyəsi müəllimləri hazırlığında Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının mühüm xidmətləri vardır. 1993-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında bakalavriat səviyyəsində mütəxəssis hazırlığına başlandı. 1997-ci ildə akademiyanı 294 nəfər tələbə bitirdi. 1991-ci ildə bu ali məktəbə 565, 2011-ci ildə 825 nəfər tələbə qəbul olunmuşdur. Ümumiyyətlə isə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 1991-ci ildə 2129, 2011-ci ildə 3734 nəfər tələbə təhsil alırdı.

---

[12] Mərdanov Misir. Azərbaycan təhsil tarixi. Bakı, "Təhsil", 2012, s. 513

Respublikamızın Qərb bölgəsi üçün müəllim kadrları hazırlığında Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun müstəsna xidmətləri olmuşdur. 1991-ci ildə Qazax, Ağstafa, Tovuz, Gədəbəy rayonlarını və Gürcüstandakı Azərbaycan məktəblərini müəllim kadrları ilə təmin etmək məqsədi ilə Gəncə Dövlət Pedaqoji İnstitutunun Qazax filialı yaradıldı. 1992/1993-cü tədris ilində bakalavriat səviyyəsinə 386 nəfər tələbə qəbul edilmişdir. 1997-ci ildə institutun ilk bakalavr buraxılışı oldu. İnstitutu 5 illik təhsil üzrə 456 nəfər, bakalavr səviyyəsi üzrə 244 nəfər bitirdi. 2000-ci ildə Gəncə Dövlət Pedaqoji İnstitutunun profili dəyişdirildi, Gəncə Dövlət Universiteti adlandırıldı. Qazax filialı ləğv olundu. GDU-nu 1991-ci ildə 1060, 2011-ci ildə 980 nəfər tələbə bitirmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli fərmanı ilə yaradılan Azərbaycan Müəllimlər İnstitutu və onun filialları məktəbəqədər təhsil müəssisələri və ibtidai siniflər üçün müəllim kadrları hazırlığında xeyli təcrübə qazanmışdır. Bu institut Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidənhazırlanması Baş İnstitutunun bazası əsasında yaradılmışdır. Respublikada pedaqoji kadrların ixtisasının artırılmasında və yenidənhazırlanmasında bu institutun çox böyük təcrübəsi vardır, ilkin müəllim kadrları hazırlığına isə 2000-ci ildən başlanmışdır. 2000/2001-ci tədris ilində Azərbaycan Müəllimlər İnstitutuna 397, onun Gəncə filialına 73, Sumqayıt filialına 51, Mingəçevir filialına 63, Şəki filialına 27, Qazax filialına 36, Ağcəbədi filialına 15, Şamaxı filialına 6, Zaqatala filialına 14, Quba filialına 16, Cəlilabad filialına 7, Salyan filialına 12, cəmi 717 nəfər tələbə qəbul olunmuşdur. 2001-ci ildən başlayaraq instituta qəbul olunan tələbələrin sayı ilbəil artmışdır.

Azərbaycan Müəllimlər İnstitutunda təhsil alan tələbələrin sayı ildən-ilə artmışdır. İnstitutda 2000-ci ildə 2025 nəfər tələbə, 2011-ci ildə 7255 nəfər tələbə təhsil almışdır.

1993/1994-cü tədris ilində Naxçıvan Dövlət Universitetinin bakalavr səviyyəsinə test üsulu ilə tələbə qəbulu keçirildi. Universitetə qəbul olunan 488 nəfər tələbədən 10%-ə qədəri ödənişli əsaslarla təhsil alırdı. 1997-ci ildə Naxçıvan Dövlət Universitetində ilk bakalavr buraxılışı oldu. 5 illik və bakalavr təhsili üzrə universiteti 569 nəfər tələbə bitirdi. Əgər 1991-ci ildə Universitetə 620 nəfər qəbul edilmişdisə, 2011-ci ildə onların sayı 729 nəfər olmuşdur.

Naxçıvan Müəllimlər İnstitutu 2000-ci ildə yaradılmışdır. 2003-cü ildən başlayaraq burada riyaziyyat və informatika, pedaqogika və psixologiya, defektologiya ixtisasları üzrə kadr hazırlığına başlanıldı. 2004-cü ildə İnstitutun bakalavr səviyyəsində ilk buraxılışı oldu. 2008-ci ildə İnstitutun strukturuna təsviri incəsənət, rəsmxətt və əmək təlimi ixtisasları daxil edildi. 2009/2010-cu tədris ilində İnstituta tələbə qəbulu 150 nəfərdən 210 nəfərə çatdırıldı. 2010/2011-ci tədris ilində isə tələbə qəbulu daha da artdı, 210 nəfərdən 250 nəfər çatdırıldı. 2011-ci ildə institutda 811 nəfər tələbə təhsil alırdı. Bu yarımfəsildə tədqiq olunan dövrdə Qərb Universiteti, Baka Asiya Universiteti, Elm və Təhsil Mərkəzi " Təfəkkür" Universiteti, Azərbaycan Universiteti, Qafqaz Universiteti, Xəzər Universiteti, Odlar Yurdu Universiteti, Bakı Qızlar Universiteti, Naxçıvan Özəl Universiteti və Azərbaycan Beynəlxalq Universitetində pedaqoji kadr hazırlığı ilə bağlı görülən işlərlə bağlı məlumat verilmişdir. Azərbaycanda "Maarif" istiqaməti üzrə aparılan kadr hazırlığı müqayisəli təhlil olumuşdur. 1997-98-ci tədris ilində 23 ali məktəbə 1100 magistrant, 2000-2001-ci illərdə 25 ali məktəbə 2400 magistrant, 2005-2006-cı tədris ilində 27 ali məktəbə 3100 magistrant, 2009-2010-cu ildə 35 ali təhsil müəssisəsinə 3935 magitrant qəbul olmuşdur. 2009-2010-cu tədris ilində 7952 magistrant hazırlanmışdır.

İkinci fəslin *"Keyfiyyətli pedaqoji kadr hazırlığında maddi-texniki bazanın və eimi-metodki təminatın gücləndirilməsinin rolu"* adlı üçüncü yarımfəslində Azərbaycanda ali pedaqoji təhsil müəssisələrində pedaqoji kadr hazırlığının keyfiyyətinə, maddi-texniki bazanın və elmi-metodiki təminatın təsiri araşdırılır. Əsaslandırılır ki, 90-cı illərin əvvəllərində Azərbaycanda ali pedaqoji kadr hazırlığını həyata keçirən məktəblərdə tədrisin səviyyəsi qaneedici olmadığı kimi, maddi-texniki baza da zəif idi. Yarımfəsildə maddi-texniki bazanın zəifliyinin obyektiv və subyektiv səbəbləri araşıdrılır, ali pedaqoji təhsil müəssisələri üçün yeni infrastrukturun yaradılması sahəsində görülən işlər ümumiləşdirilir. Yarımfəsildə əsaslandırılır ki, pedaqoji kadr hazırlığını həyata keçirən ali məktəblərin dərsliklə və elmi-metodiki nümunələrlə təminatı tədqiq etdiyimiz mərhələdə diqqət mərkəzində olmuşdur.

İkinci fəslin *"Ali pedaqoji təhsil müəssisələri üçün elmi-pedaqoji kadr hazırlığı"* adlı dördüncü yarımfəslində 1990-2000-ci illərdə ali pedaqoji təhsil müəssisələri üçün elmi-pedaqoji kadr hazırlığı məsələləri təhlil olunur. Əsaslandırılır ki, Azərbaycan dövlət müstəqilliyi

qazandıqdan sonra elmi-pedaqoji kadrların hazırlanmasının forması dəyişdi. 1992-ci ildə təsdiq edilmiş Təhsil Qanununda bakalavr-magistr-doktor sisteminə keçid nəzərdə tutulurdu. Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2003-cü il tarixli Fərmanı ilə “Alimlik dərəcələrinin və elmi adların verilməsi qaydaları haqqında Əsasnamə” təsdiq edildi. Ali Attestasiya Komissiyasının Rəyasət heyəti 2003-cü il 9 aprel tarixində mövcud qaydalarda qismən dəyişiklik edərək elmlər namizədi alimlik dərəcəsinin iddiaçıları üçün 3 fəndən (ixtisas, informatika və xarici dil) namizədlik imtahanlarının verilməsini qərara aldı.

Elmi-pedaqoji kadr hazırlığının əsas məqsədi – ali məktəblərin professor-müəllim heyətinin peşəkarlıq səviyyəsini artırmaqdan ibarətdir. Ali təhsil islahatının yaxın və uzaq perspektivdə həyata keçirilməsi keyfiyyətli elmi-pedaqoji kadrların hazırlanmasından asılıdır. Buna görə professor-müəllim heyətinin yeniləşməsinə və gəncləşməsinə diqqət yetirilir, elmi-pedaqoji kadrların hazırlanması üçün lazımi şərait yaradılır. Bunun nəticəsində ali məktəblərdə çalışan professor-müəllim heyətinin həm sayı, həm də peşəkarlıq səviyyəsi artır. Belə ki, dövlət ali məktəblərində 1990-cı ildə 8541 elmi-pedaqoji kadr, o cümlədən 581 (6,8%) elmlər doktoru, 4301 (50,3%) elmlər namizədi çalışırdısa, 2002-ci ildə bu göstəricilər müvafiq olaraq 11243, 824 (7,3%) və 5137 (45,6%) nəfər olmuşdur. Beləliklə, 12 il ərzində elmi-pedaqoji kadrların ümumi sayı 1,3 dəfə, elmlər doktorlarının sayı 1,4 dəfə, elmlər namizədlərinin sayı 1,2 dəfə artmışdır. Azərbaycan Təhsil Problemləri İnstitutunda və ADPU-da yaradılan ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisası üzrə dissertasiya şuralarında müdafiə olunan dissertasiyaların inkişaf dinamikası təhlil olunur. Yarımfəsildə əsaslandırılrı ki, tədqiq olunan mərhələdə ali pedaqoji kadr hazırlığını həyata keçirən bütün ali pedaqoji məktəblərdə elmi dərəcəsi və elmi adı olan əməkdaşların sayı artmışdır.

2008-ci ilin əvvəllərinə olan statistik məlumatlara görə respublikada 1651 aspirant təhsil alırdı. Bunlardan 669 nəfəri (40,5 %) Təhsil Nazirliyi sistemindəki ali məktəblərin payına düşürdü. Aspirantların 61,4%-i istehsalatdan ayrılmaqla təhsil alırdı. Onların 30%-ni qadınlar təşkil edirdi.

Elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə Təhsil Nazirliyinə tabe olan ali məktəblərdə işləyən 10 mindən artıq elmi və elmi-pedaqoji kadr cəlb edilmişdi. Onlardan 876 nəfərin elmlər doktoru, 4233 nəfərin isə fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi, 920 nəfərin professor, 3450 nəfərin dosent elmi adı var idi. AMEA-nın həqiqi və müxbir üzvlərindən 60 nəfəri Təhsil Nazirliyi sistemində çalışırdı.

Sitatistika Komitəsinin 2009-cu ilə olan məlumatlarına əsasən respublikada çalışan elmlər doktorlarının və fəlsəfə doktorlarının yarıdan çoxu ali məktəblərdə fəaliyyət göstərirdi.

**Elmi və elmi-pedaqoji kadrların sayı haqqında məlumat**

**Cədvəl 1.**

| № | | Elmi və elmi-pedaqoji kadrların sayı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Elmlər doktorları | Fəlsəfə doktorları |
| 1 | Respublika üzrə | 30041 | 1918 | 8976 |
| 2 | Ali məktəblər üzrə | 12640 | 1141 | 5652 |
| 3 | %-lə | 42,1% | 59,5% | 62,9% |

Əgər dövlət ali məktəblərində 1990-cı ildə 8541 elmi-pedaqoji kadr, o cümlədən 581 (6,8%) elmlər doktoru, 4301 (50,3%) elmlər namizədi çalışırdısa, 2002-ci ildə bu göstəricilər müvafiq olaraq 11243, 824 (7,3%) və 5137-yə (45,6%) çatmışdı. Beləliklə, 12 il ərzində elmi-pedaqoji kadrların ümumi sayı, 1,3 dəfə, elmlər doktorlarının sayı, 1,4 dəfə, elmlər namizədlərinin sayı 1,2 dəfə artmışdı.

Göründüyü kimi, 2008-ci ildə Təhsil Nazirliyi sisteminə daxil olan ali məktəblərdə və TPİ-də 9658 elmi-pedaqoji kadr, o cümlədən 832 (8,6 %) elmlər doktoru, 4248 (43,9%) elmlər namizədi çalışırdı. 2008-ci ilin əvvəlinə olan statistik məlumatlarla görə respublikada 1636 aspirant təhsil alırdı. Bunlardan 555 nəfəri (33,9%) Təhsil Nazirliyi sistemindəki ali məktəblərin payına düşürdü. Aspirantların 61,4%-i istehsalatdan ayrılmaqla təhsil alırdı. Aspirantların ümumi sayından 30%-i qadınlar idi[13].

Qeyd edək ki, sovet dövründə olduğu kimi, «Təhsil haqqında» yeni Qanunda elmi dərəcələrin verilməsi aspiranturadan kənar, dissertantura yolu ilə də, yeni müstəqil tədqiqatlar aparmaqla dissertasiya hazırlamaq və müdafiə etməyin mümkünlüyü təsbit edilmişdi. Əgər 2008-ci ildə Təhsil Nazirliyinə tabe olan ali məktəblərdə 669 nəfər aspirant təhsil alırdısa, həmin il dissertantların sayı 1636 nəfər olmuşdu. Dissertantura işini tənzimləmək məqsədilə 2006-cı ildən başlayaraq Təhsil Nazirliyi tərəfindən ali məktəblərin dissertanturasına qəbul planı və qəbul qaydaları təsdiq

[13] Mərdanov Misir. Azərbaycan təhsil tarixi. Bakı, "Təhsil", 2012, s. 148

edilməyə başlandı. 2006-2011-ci illər üzrə dissertantura ilə bağlı əsas göstəricilər aşağıdakı cədvəldə verilir:

**Dissertantların inkişaf dinamikası (2006-2011-ci illər)**

**Cədvəl 2**

| İllər | Dissertant-ların sayı | Buraxılış | | | Qəbul | |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | Müdafiəyə təqdim etməklə | Müdafiə etməklə | Ərizələrin sayı | Faktiki qəbul |
| 2006 | 1693 | 246 | 84 | 56 | 390 | 176 |
| 2007 | 1662 | 283 | 75 | 43 | 221 | 141 |
| 2008 | 1636 | 395 | 101 | 48 | 332 | 219 |
| 2009 | 1416 | 404 | 131 | 56 | Qəbul keçirilməyib | --- |
| 2010 | 1119 | 286 | 71 | 42 | Qəbul keçirilməyib | --- |
| 2011 | 835 | 214 | 66 | 36 | 420 | 375 |

İkinci fəslin *"Ali pedaqoji təhsilin məzmununun təkmilləşdirməsi istiqamətləri"* adlı beşinci yarımfəslində ali pedaqoji təhsilin məzmununun təkmilləşdirlməsi istiqamətləri təhlil olunur, tədqiq olunan dövrdə pedaqoji kadr hazırlığını təmin edən tədris planları (ADPU-nun) müqayisəli şəkildə araşdırılır, bakalavr hazırlığı üzrə tədris planlarının quruluşu verilir, yeni məzmun və mündəricəli "Pedaqogika" dərslikləri təhlil olunur.

2008-ci ildə bu layihənin reallaşdırılması üçün yeni tədis planları hazırlandı. Burada müəllim hazırlığını həyata keçirən bütün ixtisaslarda deyil, yalnız "İbtidai sinif müəllimliyi" (050118) ixtisasında "Təhsilin əsasları" fənni tədris planına daxil edildi. Eksterimental tədris planında xeyli dəyişikliklər nəzərdə tutuldu. Bunun üçün ilk növbədə ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı üzrə Çərçivə Kurikulumu hazırlandı. Kurikulum Azərbaycan Respublikasının Təhsil Qanunu, Təhsil sahəsində İslahat Proqramının tələbləri və dövlətin təhsil siyasəti, "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası", "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)», o cümlədən Boloniya Bəyannaməsinin əsas müddəaları və fasiləsiz müəllim hazırlığı üzrə müasir dünya standartlarına uyğun olaraq hazırlandı. Çərçivə Kurikulumunun giriş hissəsində göstərilir ki,

kurikulum ali təhsil sistemində ibtidai sinif müəllimi hazırlığının məzmunu və səviyyəsinə verilən minimum tələbləri, ibtidai sinif müəllimləri üçün beynəlxalq standartlara uyğun kompetensiyaları, ümumi təlim və tədris olunan əsas fənlər üzrə təlim nəticələri, ixtisas üzrə bakalavr hazırlığını təmin edən ali baza təhsil proqramı, onun məzmununa verilən minimum tələbləri, ali təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri, forma və üsullarını, habelə tələbə nailiyyətlərinin qiymətləndirilməsini əhatə edir. Kurikulum müasir demokratik cəmiyyətdə gedən ictimai-siyasi və mədəni qloballaşma, universallaşma və informasiya-kommunikasiya texnologiyalarının rolunun durmadan artdığı, açıq rəqabətin gücləndiyi şəraitdə fundamental peşə hazırlığına, ixtisas üzrə zəruri bilik, bacarıq və vərdişlərə malik, ölkəmizin əvvəlki inkişaf və islahat dövrlərində qazanılmış nailiyyətlərin, milli və ümumbəşəri dəyərlərin qorunub saxlanılmasını təmin edə biləcək müəllimlərin yüksək təhsil səviyyəsi və bacarıqlara yiyələnməsinə yönəlmişdir.

İkinci fəslin *"Ali pedaqoji təhsil sahəsində beynəlxalq əlaqələr: Boloniya prosesi və beynəlxalq əlaqələrin pespektivləri"* adlı altıncı yarımfəslində əsaslandırılır ki, XX əsrin 90-cı illərin əvvəllərində Azərbaycanda ali təhsil sahəsində, o cümlədən ali pedaqoji təhsil sahəsində yeni inkişaf prioritetləri müəyyənləşdirildi. Azərbaycan təhsilinin Avropa təhsilinə inteqrasiyası təhsilin məzmununda köklü dəyişikliklərin aparılması zərurəti yaratdı. Azərbaycan öz ali təhsil sisteminin inkişaf prioritetlərini Avropa təhsil məkanında gedən proseslərə inteqrasiya olunmaqla müəyyənləşdirməyə başladı. Bu baxımdan, həyata keçirilən tədbirlər sırasında Boloniya prosesi önəmli yer tutur. Boloniya prosesinin əsas tələblərindən biri Azərbaycan təhsilini Avropa meyarlarına uyğunlaşdırmaqdan ibarətdir. «Avropa meyarı» - bu, hər şeydən əvvəl təhsildə yeni meyllərə təkan verən və bütün avropalılar tərəfindən həyata keçirilən yeni təcrübədir. 2005-ci il may ayının 19-da Norveçin Bergen şəhərində keçirilən konfransda Azərbaycan Boloniya prosesinə qoşuldu. Belarusu çıxmaq şərti ilə Avropa ölkələrinin vahid ali təhsil məkanı formalaşdı. Boloniya prosesi ümumi təhsil sistemlərində müxtəlifliklə eyniyyət arasında balansı tarazlayır. Hər bir xalqın, millətin tarixi, milli xüsusiyyətləri, adət-ənənələri qorunur, bu dəyərlərə hörmətlə yanaşılır. Yarımfəsildə Boloniya Bəyannaməsinin əsas müddəaları Azərbaycan təcrübəsi əsasında şərh edilmişdir.

Dissertasiyanın sonunda əsas **nəticələr** ümumiləşdirilmişdir.

1. Azərbaycanın Rusiya tərəfindən işğalından sonra Şimali Azərbaycan islam-türk dünyasında gedən proseslərdən ayrıldı, Şərq ölkələri ilə çoxəsrlik əlaqələr qırıldı. Rus-Avropa elmi-mədəni fikri Şərq xarakterli Azərbaycanın mədəni, ictimai təfəkkürünü üstələdi.

2. Sovet hakimiyyəti illərində Azərbaycanda mədəni həyatın bütün sahələrində partiya və dövlət nəzarətinin, sosialist ideyalarının, təhsilin səviyyəsinin artırılması və gücləndirilməsi dövrü olmuşdur. Mədəniyyət sahəsində idarəetmənin həddindən artıq mərkəzləşdirilməsi mədəni quruculuğun azad, demokratik inkişafını məhdudlaşdırır, bəzi hallarda milli mədəniyyətin mənafeyinə zərər vururdu. Eyni zamanda həmin illərdə əhali elliklə mədəni quruculuq işlərinə səfərbər edilir, ölkənin hər yerində mədəni quruculuq işləri həyata keçirilir, savadsızlığa qarşı mübarizə aparılırdı. Bu işdə Sovet Rusiyasının təhsil modeli əsas götürüldü. Vahid dünyəvi əmək məktəbi, oğlanlarla qızların birgə təhsili, pulsuz təhsil, təhsildə hüquq bərabərliyi prinsipləri önə çəkilirdi.

3. Azərbaycanda ali təhsilli müəllim kadrlarının hazırlığı dövlətin təhsil siyasətinin mühüm istiqamətlərindən birini təşkil edirdi. Bu məqsədlə 1921-ci ildə indiki ADPU-nun əsası qoyuldu. Sonrakı illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (1936), M.F.Axundov adına Müəllimlər İnstitutu, Quba, Ağdam və Qazax şəhərlərində müəllimlər institutları açıldı (1943-1944). Bakıda Azərbaycan Dövlət ikiillik Müəlilmlər İnstitutu təşkil edildi (1946). Gəncə Dövlət İnstitutunun əsası qoyuldu. Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu təşkil edildi (1973). Naxçıvanda indiki Naxçıvan Dövlət Universitetinin və Dağlıq Qarabağda Xankəndi Pedaqoji İnstitutunun əsası qoyuldu. Azərbaycanda pedaqoji kadr hazırlığını həyata keçirən təhsil müəssisələri dəfələrlə birləşdirildi və ayrıldı. Məsələn, Azərbaycan Dövlət Pedaqoji İnstitutu 2 dəfə Bakı Dövlət Universitetinə birləşdirildi.

4. Sovet hakimiyyəti illərində olduğu kimi, Azərbaycan müstəqillik qazandıqdan sonra da ali pedaqoji kadr hazırlığını həyata keçirən təhsil müəssisələrinin sayı artdı, yeni özəl ali pedaqoji təhsil müəssisələri yarandı, tələbə kontingentinin sayı ildən-ilə artdı.

5. Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra elmi-pedaqoji kadrların hazırlanmasının forması dəyişdi. 1992-ci ildə təsdiq edilmiş Təhsil Qanununda bakalavr-magistr-doktor sisteminə keçid nəzərdə tutulurdu. Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2003-cü il tarixli Fərmanı ilə “Alimlik dərəcələrinin və elmi adların verilməsi

qaydaları haqqında Əsasnamə” təsdiq edildi. Ali Attestasiya Komissiyasının Rəyasət heyəti 2003-cü il 9 aprel tarixində mövcud qaydalarda qismən dəyişiklik edərək elmlər namizədi alimlik dərəcəsinin iddiaçıları üçün 3 fəndən (ixtisas, informatika və xarici dil) namizədlik imtahanlarının verilməsini qərara aldı. Tələbə kontingentinin inkişaf dinamikasına uyğun olaraq professor-müəllim heyətinin də tərkibində artım oldu. Elmi adı və elmi dərəcəsi olanların sayı artdı.

6. Azərbaycanda təhsilin, o cümlədən ali pedaqoji təhsilin dinamik inkişafında böyük nailiyyətlər əldə edildi. Sürətli dəyişikliklərin baş verdiyi müasir dünyada məhz təhsil sosial-iqtisadi və mədəni sahələrdə davamlı inkiaşafa təkan verən real qüvvə hesab edildi. 90-cı illərin ikinci yarısında cəmiyyətin tələbatına uyğun olaraq təhsil sisteminin bütün pillə və səviyyələrində islahatların aparılması zərurəti meydana çıxdı. “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” təsdiq edildi.

7. Ali pedaqoji təhsilin məzmununda əhəmiyyətli dəyişikliklər baş verdi, yeni dövlət standartları əsasında tədris plan və proqramları hazırlandı, dərslik və dərs vəsaitləri tərtib olundu.

8. Azərbaycanda ali təhsil sahəsində, o cümlədən ali pedaqoji təhsil sahəsində yeni inkişaf prioritetləri müəyyənləşdirildi. Azərbaycan təhsilinin Avropa təhsilinə inteqrasiyası təhsilin məzmununda köklü dəyişikliklərin aparılması zərurəti yaratdı. Azərbaycan öz ali təhsil sisteminin inkişaf prioritetlərini Avropa təhsil məkanında gedən proseslərə inteqrasiya olunmaqla müəyyənləşdirməyə başladı. Bu baxımdan, həyata keçirilən tədbirlər sırasında Boloniya prosesi önəmli yer tutur. Boloniya prosesinin əsas tələblərindən biri Azərbaycan təhsilini Avropa meyarlarına uyğunlaşdırmaqdan ibarətdir.

Dissertasiyanın məzmunu ilə bağlı iddiaçının **tezis və məqalələri** nəşr olunmuşdur:

1. Müasir dövrdə Azərbaycanda ali pedaqoji təhsilin inkişafında Azərbaycan Dövlət Pedaqoji Universitetinin rolu // Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər. 2012, № 1, s.182-187

2. Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafı tarixindən // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2012, №3, s.165-169

3. Müasir dövrdə ali pedaqoji təhsilin məzmunun təkmilləşdirilməsinin bəzi məsələləri / Azərbaycan Respublikası Təhsil Nazirliyi. Doktorantların və Gənc Tədqiqatçıların XVII Respublika Elmi Konfransının Materialları. Bakı, 2012, s.285-288

4. Maddi-texniki bazanın gücləndirilməsi ADPU-da təlim keyfiyyətinin yüksəldilməsinin şərti kimi / Azərbaycan Respublikası Təhsil Nazirliyi, “Ümumi orta təhsilin müasir problemləri” mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 24 noyabr 2012, s.128-129

5. Müasir dövrdə Azərbaycan ali pedaqoji təhsilin Avropaya inteqrasiyasının əsas istiqmətləri // Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər, 2013, №1, s.225-228

6. Müstəqil Azərbaycan Respublikasında ali pedaqoji təhsilin hüquqi-normativ bazasının yaradılması // Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2013, №1, s.255-258

7. Ali pedaqoji təhsil müəssisələrinin maddi-texniki bazasının yaradılması // Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2013, №3, s.226-229

8. Основные направления подготовки научно-педагогических кадров в педагогических вузах Азербайджана // «Вектор науки» Тольяттинского Государственного Университета. Серия: Педагогика, психология. 2013, № 2 (13), s. 71-74

9. Müasir ali pedaqoji təhsilin məzmunu, məqsəd və vəzifələri // Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2014, №4, s.206-210

10. Müasir dövrdə ali pedaqoji təhsilin inkişafında Azərbaycan Müəllimlər İnstitutunun rolu // Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2014, №1, s.190-194

11. Создание нормативно-правовой базы высшего педагогического образования в Азербайджанской Республике / «Актуальные задачи педагогики». Материалы международной научной конференции. Чита, 2014, c.208-212

**Гасанова Айнур Фаррух кызы**

**Развитие высшего педагогического образования в Азербайджане на современном этапе (1991-2000 гг.)**

**Резюме**

Диссертация состоит из введения, 2-х глав, выводов и использованной литературы.

Во введении обосновывается актуальность темы, объект исследования, предмет, цель, задачи, методологическая основа, методы, научная новизна, теоретическое и практическое значение, излагаются основные положения выдвигаемые на защиту.

В первой главе – «Из истории становления и развития высшего педагогического образования в Азербайджане (20-80 гг. XX века) – рассматриваются общественно-политические и социально-педагогические условия, анализируется возникновение сети высших педагогических учреждений, обусловливающие становления и развития высшего педагогического образования в Азербайджане, выявляются объективные и субъективные причины процессов интеграции и дифференциации.

Во второй главе диссертации «Роль высших педагогических образовательных учреждений в подготовке учительских кадров в Азербайджане на современном этапе» определяются основные направления реформы в области высшего педагогического образования, рассматриваются актуальные проблемы расширения и управления сети высшего педагогического образования на современном этапе, выявляется роль расширения материально-технической базы и научно-методического обеспечения в качественной подготовке педагогических кадров. Анализируются проводимые работы в подготовке научно-педагогических кадров для учреждений высшего педагогического образования, рассматриваются направления усовершенствования содержания высшего педагогического образования. В этой главе проясняется сущность международных отношений в области высшего педагогического образования, рассматриваются перспективы Болонского процесса и международных отношений.

В конце диссертации обобщаются научные выводы.

**Aynur Farrukh gizi Hasanova**

**Development of the higher pedagogical education in Azerbaijan at the present stage (1991-2000th year).**

## Summary

The thesis consists of an introduction, 2 chapters, conclusions and references.

In the introduction the actuality of the topic, research object, subject, goal, objectives, methodological framework, methods, scientific novelty, the theoretical and practical value, sets out the main provisions put forward by the defense.

In the first chapter - "From the history of formation and development of the higher pedagogical education in Azerbaijan (20-80 gg. XX century) - considered the socio-political and socio-pedagogical conditions and analyzes the emergence of the network of higher educational institutions that contribute to the formation and development of the higher pedagogical education Azerbaijan identifies objective and subjective reasons for the processes of integration and differentiation.

In the second chapter of the thesis "The role of higher pedagogical educational institutions in the training of teaching staff in Azerbaijan at the present stage," identifies the main areas of reform in higher teacher education deals with topical issues of expansion and management of the network of higher teacher education at the present stage, shows the role of expanding logistics base and scientific and methodological support for high-quality teacher training. Analyzed the work carried out in preparation of the teaching staff for institutions of higher pedagogical education, considered ways of improving the content of the higher pedagogical education. This section clarifies the nature of international relations in the field of higher pedagogical education and perspectives of the Bologna process and international relations.

At the end of the thesis summarizes the scientific findings.

**Министерство образования Азербайджанской Республики**
**Азербайджанский Государственный Педагогический Университет**

*На правах рукописи*

**ГАСАНОВА АЙНУР ФАРРУХ КЫЗЫ**

# РАЗВИТИЕ ВЫСШЕГО ПЕДАГОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ НА СОВРЕМЕННОМ ЭТАПЕ (1991-2000 ГГ.)

5804.01-Общая педогогика, история педогогики и образованя

**А В Т О Р Е Ф Е Р А Т**

На соискание ученой степени диссертации доктора философии по педагогика

**БАКУ-2015**